**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

"Təsdiq edirəm:"
Tədris məsələləri üzrə prorektor vəzifəsini icra edən
________ dos.Zaur Məmmədov.
"__" _________ 2025-ci il

**Fənn sillabusu**

**İxtisas.** 7005004 Ekologiya. Ətraf mühitin mühafizə və bərpa metodları ixtisası (proqramı) üzrə
**Fakültə.** Təbiyyat
**Kafedra.** Fizika, kimya və biologiya.

**I. Fənn haqqında məlumat:**
**Fənnin adı.** Təbii resursların idarə olunması və planlaşdırma.
**Fənn proqramı:** (LDU, Fizika, kimya və biologiya kafedrasının 10.09.2025-ci il tarixli (protokol № 01) iclasında müzakirə olunub məqsədəuyğun hesab edilmişdir).
**Kodu :** MIF-B03
**Tədris ili:** I (2025-2026), semestr I.
**Tədris yükü :** Cəm 180 saat. Auditoriya saatı - 45 (30 saat mühazirə, 15 saat seminar məşğələ).
**Tədris forması:** Əyani.
**Tədris dili:** Azərbaycan dili.
**AKTS üzrə kredit:** 6 kredit
**Auditoriya :**
**Saat:** Hər həftə IV gün 1-ci saat ($08^{30}$-$10^{05}$-dək) mühazirə, altı həftələr V gün, 2-ci saat ($10^{05}$-$11^{50}$-dək) seminar məşğələ.

**II.Müəllim haqqında məlumat:**
Adı, soyadı, elmi dərəcəsi : *Ağayev Qorxmaz Kazım oğlu. biol.f.d., dos.*
Məsləhət saatı: Hər həftə II gün saat $15^{50}$ -$17^{25}$-dək.
E-mail ünvanı: **qorxmaz-1976@mail.ru**
Kafedranın ünvanı: Lənkəran şəhəri, H.Z.Tağıyev küçəsi, 118.

**III. Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
**Əsas:**
1. Ələkbərov U. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. Bakı, 2017.
2. Əliyev R. Alternativ enerji və ekologiya. Bakı, 2015.
3. Bayramov K. Təbiətdən istifadənin iqtisadi və ekoloji problemləri. Bakı, 2012.
4. Cəfərova R. Təbiətdən istifadənin iqtisadiyyatı. Bakı, 2014.
5. Göyçaylı Ş., İsmayılov T. Təbiətdən istifadənin iqtisadi və ekoloji əsasları. Bakı, 2006.
6. İbrahimov İ. Ətraf mühitin iqtisadiyyatı. Bakı, 2015.
7. Maksakovski V. Dünyanın coğrafi mənzərəsi (Dünyanın ümumi xüsusiyyətləri). Bakı, 2010.
8. Nəbiyev N. İqtisadiyyat, cəmiyyət və ekoloji mühit. Bakı, 2000.
9. Qurbanov S. Yaşıl iqtisadiyyat: Ekoloji və iqtisadi krizlərə qarşı antiböhran idarəetmə modeli. Bakı, 2024.
10. Yusifov D. İnsan: Təbiət və cəmiyyət. Bakı, 2014.

**Əlavə:**
11. Əsgərov Ə. Ətraf mühitin qorunması və təbii sərvətlərdən istifadə. Bakı.1989.
12. Qurbanzadə A. Ekologiya: sosial-iqtisadi əsasları. Bakı, 2010.
13. Колесников Е. Оценка воздействия на окружающую среду. Экспертиза безопасности. Москва. 2017.
14. Zengin E. Davamlı inkişaf və vahid ekoloji siyasət: Türkiyə və Azərbaycan. Bakı. 2007.

**IV. Perekvizitlər:** Öncə oxşar ekoloji fənlərinin tədris olunması nəzərdə tutulmamışdır.
**V. Korekvizitlər:** Eyni vaxtda digər ekoloji fənnlərin tədris olunması əhəmiyyətlidir.

CamScanner ilə skan edilib

**VI. Fənnin təsviri və məqsədi:**

"Təbii resursların idarə olunması və planlaşdırma" fənni magistratura səviyyəsində tədris olunan, təbii ehtiyatların qorunması, səmərəli istifadəsi və davamlı inkişafın təmin edilməsi ilə bağlı elmi-nəzəri və metodoloji bilikləri əhatə edən bir kursdur. Fənnin əsas məzmununu təbii resursların mövcud vəziyyətinin qiymətləndirilməsi, onların idarə olunması mexanizmlərinin işlənməsi, resurs potensialının planlaşdırılması və optimal istifadənin təmin olunması təşkil edir. Burada təbii resurslardan istifadənin ekoloji, iqtisadi və sosial aspektlərinin uzlaşdırılması, beynəlxalq təcrübələrin öyrənilməsi və milli şəraitdə tətbiqi xüsusi diqqət mərkəzində saxlanılır.

Kursun məqsədi magistrantlara təbii resursların idarə olunmasının müasir elmi yanaşmalarını və metodlarını öyrətmək, resurs ehtiyatlarının səmərəli istifadəsinə dair analitik və proqnozlaşdırıcı bacarıqlar formalaşdırmaqdır. Bununla yanaşı, magistrantlarda ekoloji təhlükəsizlik və davamlı inkişaf prinsiplərinə əsaslanan strateji planların hazırlanması bacarığı inkişaf etdirilir. Fənn həmçinin təhsilalanları təbii resursların idarə olunması ilə bağlı elmi-tədqiqat işlərinə cəlb edir, beynəlxalq standart və yanaşmaları öyrənməyə, onların milli kontekstdə tətbiqi imkanlarını araşdırmağa istiqamətləndirir.

**VII. Davamiyyətə verilən tələblər:**

Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda magistrant həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII.Qiymətləndirmə:**

Magistrantların biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı magistrant semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır. İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Qiymət meyarları aşağıdakılardır:

*-10 bal- magistrant keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*

*-9 bal- magistrant keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*

*-8 bal- magistrant cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*

*-7 bal- magistrant keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*

*-6 bal- magistrantın cavabı əsasən düzgündür.*

*-5 bal- magistrantın cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*

*-4 bal- magistrantın cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*

*- 3 bal- magistrantın mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*

*- 1-2 bal- magistrantın mövzudan qismən xəbəri var.*

*-0 bal- suala cavab yoxdur.*

Magistrantın imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə magistrantın imtahan göstəriciləri smestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

***Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)***

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51-baldan aşağı | qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** Magistrant Universitetin daxili nizam–intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcəkdir.

CamScanner ilə skan edilib

X.Təqvim planı: Muhazirə 30nsaat, seminar məşğələ 15 saat.

| № | Keçirilən <u>mühazirə</u>, <u>seminar</u>, məşğələ, laboratoriya və sərbəst mövzuların məzmunu | Saat | | Tarix | |
|---|---|---|---|---|---|
| | | mü h. | sem . | mü h | sem |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1. | **Mövzu 1: Təbii resursların idarə olunması və planlaşdırma kursunun nəzəri və strateji əsasları.**<br>**Plan:**<br>1. Təbii resursların təsnifat növləri və onların iqtisadi inkişafda rolu.<br>2. Davamlı inkişaf konsepsiyasının təbii resursların idarə olunmasına tətbiqi.<br>3. Resurs idarəetməsinin nəzəri modelləri: neoklassik, ekoloji-iqtisadi və institusional yanaşmalar.<br>4. Təbii resurs siyasətinin strateji planlaşdırılması və əsas prioritetlər.<br>5. Təbii resursların idarə olunmasında dövlətin tənzimləyici rolu.<br>**Mənbə [1,3,4,5,6,7,9,12,14]** | 2 | 2 | | |
| 2. | **Mövzu 2: Dünya mineral filiz xammalı resurslarının hasilatı, onlardan səmərəli istifadəsinin planlaşdırılması.**<br>**Plan:**<br>1. Dünya mineral filiz xammalının coğrafi paylanması və ehtiyatları.<br>2. Filiz hasilatının texnoloji prosesləri və ətraf mühitə təsirinin qiymətləndirilməsi.<br>3. Filizlərin emalı zamanı tullantıların idarə edilməsi və təkrar emalın iqtisadi effektivliyi.<br>4. Filiz xammallarının səmərəli istifadə strategiyaları və tullantısız istehsal.<br>**Mənbə [2,3,5,6,7,8,9,10,12]** | 2 | | | |
| 3. | **Mövzu 3: Dünya mineral yanacaq resurslarının hasilatı və səmərəli istifadəsinin planlaşdırılması.**<br>**Plan:**<br>1. Mineral yanacaq resurslarının dünya miqyasında paylanması və ehtiyatların qiymətləndirilməsi.<br>2. Mineral yanacaqların hasilatı texnologiyaları və ekoloji risklərin idarə edilməsi.<br>3. Mineral yanacaqların hasilatında enerji təhlükəsizliyi və enerji effektivliyinin artırılması.<br>4. Mineral yanacaqlardan alternativ enerji mənbələrinə keçidin planlaşdırılması və investisiya siyasəti.<br>**Mənbə [1,2,4,5,6,7,8,11,12]** | 2 | 2 | | |
| 4. | **Mövzu 4: Qeyri-filiz (tikinti və kimya sənaye xammalları) resurslarının hasilatı və səmərəli istifadəsi.**<br>**Plan:**<br>1. Qeyri-filiz resurslarının növləri və tətbiq sahələri.<br>2. Mədənçıxarma və emalın texnoloji xüsusiyyətləri və ətraf mühitə təsirin azaldılması.<br>3. Tikinti materialları sənayesində tullantıların idarə edilməsi.<br>4. Kimya sənayesi üçün xammalın təminatının planlaşdırılması və ehtiyatların rasionallığı.<br>**Mənbə [3,4,5,6,7,9,10,12]** | 2 | | | |

CamScanner ilə skan edilib

| | | | | | |
|---|---|---|---|---|---|
| 5. | **Mövzu 5: Dünya okeanının mineral resurslarının idarə olunması və səmərəli istifadəsi.**<br>**Plan:**<br>1. Dünya okeanının mineral ehtiyatları, dəniz dibi mədənlər.<br>2. Dərin dəniz mədənçıxarma texnologiyaları və ekoloji təhlükələri.<br>3. Beynəlxalq dəniz hüququ və okean resurslarının bölüşdürülməsi prinsipləri.<br>4. Dəniz mədənçıxarma fəaliyyətinin monitorinqi və idarə edilməsi mexanizmləri.<br>5. Okean resurslarından istifadənin iqtisadi və ekoloji davamlılığının qiymətləndirilməsi.<br>**Mənbə [1,3,4,5,6,7,8,10,11]** | 2 | | | |
| 6. | **Mövzu 6: Alternativ enerji resursları (günəş, külək, hidroenerji, geotermal və s.) və onlardan istifadənin planlaşdırılması.**<br>**Plan:**<br>1. Alternativ enerji mənbələrinin növləri, potensialı və texnoloji xüsusiyyətləri.<br>2. Bərpa oluna bilən enerji mənbələrinin inteqrasiyası üçün enerji sistemlərinin planlaşdırılması.<br>3. Alternativ enerji mənbələri sahəsində investisiya siyasəti, dövlət stimulları və maliyyə mexanizmləri.<br>4. Enerji saxlanması texnologiyalarının inkişafı və şəbəkə idarəetməsi.<br>5. Regionlar üzrə alternativ enerji potensialının qiymətləndirilməsi və prioritet istiqamətlərin müəyyən edilməsi.<br>**Mənbə [2,3,5,6,7,8,9,10,11,14]** | 2 | 2 | | |
| 7. | **Mövzu 7: Dünya şirin su ehtiyatlarının inteqrasiyalı idarə olunması və mühafizəsi.**<br>**Plan:**<br>1. Dünya şirin su ehtiyatlarının coğrafi paylanması və keyfiyyətinin qiymətləndirilməsi.<br>2. İnteqrasiya olunmuş su resurslarının idarə edilməsi anlayışı və prinsipləri.<br>3. Dünyada su çatışmazlığı probleminin həlli yolları.<br>4. Çay hövzələrinin idarə edilməsi və transsərhəd su məsələləri.<br>5. Su təhlükəsizliyi strategiyası və iqlim dəyişikliyinin su ehtiyatlarına təsiri.<br>**Mənbə [1,3,4,6,7,8,9,10,11,12,14]** | 2 | 2 | | |
| 8. | **Mövzu 8: Torpaq resurslarının idarə olunması və səmərəli istifadəsinin planlaşdırılması.**<br>**Plan:**<br>1. Torpaq resurslarının kateqoriyaları və bonitirovkası.<br>2. Torpaqdan istifadənin planlaşdırılması: kənd təsərrüfatı, meşə, şəhər torpaqlarının balansı.<br>3. Torpaq deqradasiyasının (eroziya, duzlaşma, səhralaşma) qarşısının alınması və torpaqların bərpası.<br>4. Torpaq mülkiyyəti hüququ və torpaq kadastrının idarəetmədə rolu.<br>5. Dayanıqlı kənd təsərrüfatı və torpaq mühafizəsi tədbirləri.<br>**Mənbə [1,3,4,6,7,8,9,10,11,14]** | 2 | | | |

CamScanner ilə skan edilib

| | | | | | |
|---|---|---|---|---|---|
| 9. | **Mövzu 9: Aqroiqlim resurslarının davamlı kənd təsərrüfatının inkişafı və planlaşdırılmasında istifadəsi.**<br>**Plan:**<br>1. Aqroiqlim resurslarının (temperatur, yağıntı, vegetasiya dövrü) təsnifatı və qiymətləndirilməsi.<br>2. İqlim dəyişikliyinin kənd təsərrüfatı məhsuldarlığına təsirinin proqnozlaşdırılması.<br>3. Suvarma sistemlərinin planlaşdırılması və su resurslarının səmərəli istifadəsi.<br>4. İqlimə uyğun kənd təsərrüfatı texnologiyaları və becərmə üsullarının seçimi.<br>5. Aqroiqlim zonallaşdırma və regional kənd təsərrüfatı strategiyalarının hazırlanması.<br>**Mənbə [2,4,6,7,8,9,10,11,12,14]** | 2 | 2 | | |
| 10. | **Mövzu 10: Bioloji müxtəlifliyin qorunması və genetik resursların idarə olunması.**<br>**Plan:**<br>1. Bioloji müxtəliflik: növlərin, ekosistemlərin və genetik müxtəlifliyin əhəmiyyəti.<br>2. Bioloji müxtəlifliyin itirilməsinin səbəbləri və qlobal təhlükə altında olan növlər.<br>3. Qorunan ərazilər şəbəkəsinin yaradılması və idarə edilməsi strategiyaları.<br>4. Genetik resursların dayanıqlı istifadəsi (farmakologiya, kənd təsərrüfatı) və mühafizəsi.<br>5. Bioloji müxtəlifliyin qorunmasında beynəlxalq konvensiyalar və milli siyasətlər.<br>**Mənbə [1,4,6,7,8,9,10,11,14]** | 2 | | | |
| 11. | **Mövzu 11: Dünya meşə resurslarının idarə olunması və bərpasının planlaşdırılması**<br>**Plan:**<br>1. Dünya meşə fondunun vəziyyəti: meşə örtüyünün azalması və meşə landşaftlarının dəyişməsi.<br>2. Dayanıqlı meşə təsərrüfatı prinsipləri: balanslaşdırılmış istifadə, müntəzəm bərpa və monitorinq.<br>3. Meşələrin karbon udma potensialı və iqlim dəyişikliyi ilə mübarizədə rolu.<br>4. Meşə məhsullarının idarə edilməsi.<br>5. Meşə siyasəti, qanunvericilik və beynəlxalq meşə idarəetmə sistemləri.<br>**Mənbə [1,2,4,6,7,8,9,10,11,14]** | 2 | 2 | | |
| 12. | **Mövzu 12: Dünya okeanının bioloji resurslarının idarə olunması və qorunması.**<br>**Plan:**<br>1. Dünya okeanının əsas bioloji resursları (balıq, dəniz bitkiləri və s.).<br>2. Dünya okeanında həddindən artıq ov probleminin ekoloji və iqtisadi nəticələri.<br>3. Dünya okeanında məhsuldarlığın saxlanması və kvotaların müəyyən edilməsi.<br>4. Akvakultura və marikulturanın inkişafı, onların vəhşi populyasiyaların mühafizəsində rolu. | 2 | | | |

CamScanner ilə skan edilib

| | | | | | |
|---|---|---|---|---|---|
| | 5. Dəniz qorunan ərazilərinin yaradılması və beynəlxalq dəniz qoruma konvensiyaları.<br>**Mənbə [1,3,4,6,7,8,9,10,11,14]** | | | | |
| 13. | **Mövzu 13: Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə olunması və inkişafının planlaşdırılması.**<br>**Plan:**<br>1. Xüsusi mühafizə olunan təbiət ərazilərinin kateqoriyaları: qoruqlar, milli parklar, təbiət abidələri və s.<br>2. Xüsusi mühafizə olunan təbiət ərazilərinin seçilməsi, zonallaşdırılması və idarəetmə planlarının hazırlanması.<br>3. Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə olunmasında ekoturizmin inkişaf imkanları.<br>4. Bioqorunma və invaziv növlərin idarə edilməsi.<br>5. Xüsusi mühafizə olunan təbiət ərazilərinin mühafizəsində yerli icmaların iştirakı.<br>**Mənbə [1,3,4,6,7,8,9,10,11,14]** | 2 | | | |
| 14. | **Mövzu 14: Azərbaycanın təbii resurslarının idarə olunması və milli inkişaf strategiyaları.**<br>**Plan:**<br>1. Azərbaycanın təbii resurs potensialının (neft, qaz, su, torpaq, bioresurslar) qiymətləndirilməsi.<br>2. Azərbaycanda neft-qaz kompleksinin iqtisadiyyatda rolu.<br>3. Azərbaycanda alternativ enerji mənbələrinə keçid strategiyası.<br>4. Azərbaycanda kənd təsərrüfatı və su resurslarının idarə edilməsi: problemlər və həll yolları.<br>5. Azərbaycanda ekoloji təhlükəsizlik və regionların ekoloji bərpası (Abşeron, Kür çökəkliyi və s.).<br>6. "Azərbaycan 2030: sosial-iqtisadi inkişaf perspektivləri" strategiyasında təbii resursların yeri.<br>**Mənbə [1,2,4,6,7,8,9,10,11,12]** | 2 | 2 | | |
| 15. | **Mövzu 15: Təbii resursların idarə olunmasında beynəlxalq əməkdaşlıq və davamlı inkişaf konsepsiyası.**<br>**Plan:**<br>1. Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədləri (DİM) və təbii resursların idarə edilməsi.<br>2. Transsərhəd təbii resursların (su, hava, miqrant heyvanlar) idarə edilməsi və beynəlxalq konvensiyalar.<br>3. Davamlı inkişaf üçün ekoloji standartlar və texnologiyaların beynəlxalq mübadiləsi üzrə əməkdaşlıq.<br>4. Qlobal ekoloji fondlar və davamlı inkişaf layihələrinin maliyyələşdirilməsi.<br>5. Davamlı inkişafın iqtisadi, sosial və ekoloji tarazlığın təmin edilməsi strategiyaları.<br>**Mənbə [1,2,4,6,7,8,9,10,11,14]** | 2 | 1 | | |
| | **Cəmi:** | **30** | **15** | | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**

**Tələblər:**

Kursu mənimsəyən magistrantlar:

- Təbii resursların idarə olunmasının nəzəri əsaslarını və müasir metodlarını mənimsəməli;
- Davamlı inkişaf konsepsiyasını və onun resurs idarəçiliyində tətbiqini öyrənməli;
- İdarəetmə və planlaşdırma prosesində ekoloji, iqtisadi və sosial amilləri əlaqələndirməyi bacarmalı;

CamScanner ilə skan edilib

- Təbii resursların idarə olunmasında yerli və beynəlxalq təcrübələri müqayisə etməli, onların tətbiq imkanlarını qiymətləndirməli;
- Resurslardan istifadənin sosial-iqtisadi nəticələrini qiymətləndirməli;
- Təbii resursların qorunması və bərpası üzrə planlaşdırma yanaşmalarını əsaslandırmağı bacarmalıdır.

**Tapşırıqlar:**

- Müxtəlif təbii resurs növlərinin idarə olunması üzrə analitik təqdimatlar hazırlamaq;
- Seçilmiş resurs növü üzrə planlaşdırma modeli qurmaq və izah etmək;
- Davamlı inkişaf prinsipləri əsasında regional və ya qlobal miqyasda resurs istifadəsinə dair tədqiqat aparmaq;
- Beynəlxalq təcrübədən seçilmiş bir nümunəni təhlil edib milli şəraitlə müqayisə etmək;
- Müəyyən bir region üzrə təbii resursların istifadəsinin səmərəliliyini qiymətləndirmək və təkliflər hazırlamaq;
- Təbii resursların qorunması və bərpası üzrə konseptual plan layihəsi işləmək.

**XII. Fənn üzrə təlim nəticələri:**

Ətraf mühitin çirklənməsi və qarşısının alınması metodları" fənni üzrə təlim nəticələri (FTN) aşağıdakılardır:

FTN 1. Təbii resursların idarə olunmasının nəzəri əsaslarını və metodoloji yanaşmalarını izah edə bilir.

FTN 2. Təbii resursların mövcud vəziyyətini qiymətləndirə, onların istifadəsi və qorunması üzrə analitik təhlil apara bilir.

FTN 3. Resurslardan istifadənin ekoloji, iqtisadi və sosial aspektlərini əlaqələndirərək kompleks yanaşma tətbiq edə bilir.

FTN 4. Təbii resursların idarə olunması və planlaşdırılması üzrə strateji modellər hazırlaya bilir.

FTN 5. Beynəlxalq resurs idarəçiliyi təcrübələrini təhlil edir və onların milli şəraitdə tətbiqi imkanlarını əsaslandıra bilir.

FTN 6. Təbii resursların davamlı istifadəsi və bərpası üçün konseptual planlar işləyib təklif edə bilir.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV: Kollekvium sualları:**

**I Kollekvium sualları:**

1. Təbii resursların təsnifat növləri və onların iqtisadi inkişafda rolu.
2. Təbii resurs siyasətinin strateji planlaşdırılması və əsas prioritetlər.
3. Dünya mineral filiz xammalının coğrafi paylanması və ehtiyatları.
4. Filiz xammallarının səmərəli istifadə strategiyaları və tullantısız istehsal.
5. Mineral yanacaq resurslarının dünya miqyasında paylanması və ehtiyatların qiymətləndirilməsi.
6. Qeyri-filiz resurslarının növləri və tətbiq sahələri.
7. Dünya okeanının mineral ehtiyatları, dəniz dibi mədənlər.
8. Okean resurslarından istifadənin iqtisadi və ekoloji davamlılığının qiymətləndirilməsi.
9. Alternativ enerji mənbələrinin növləri, potensialı və texnoloji xüsusiyyətləri.
10. Bərpa oluna bilən enerji mənbələrinin inteqrasiyası üçün enerji sistemlərinin planlaşdırılması.

**II Kollekvium sualları:**

1. Dünya şirin su ehtiyatlarının coğrafi paylanması və keyfiyyətinin qiymətləndirilməsi.
2. Su təhlükəsizliyi strategiyası və iqlim dəyişikliyinin su ehtiyatlarına təsiri.
3. Torpaq resurslarının kateqoriyaları və bonitirovkası.
4. Dayanıqlı kənd təsərrüfatı və torpaq mühafizəsi tədbirləri.
5. Aqroiqlim resurslarının (temperatur, yağıntı, vegetasiya dövrü) təsnifatı və qiymətləndirilməsi.

CamScanner ilə skan edilib

6. İqlim dəyişikliyinin kənd təsərrüfatı məhsuldarlığına təsirinin proqnozlaşdırılması.
7. Bioloji müxtəliflik: növlərin, ekosistemlərin və genetik müxtəlifliyin əhəmiyyəti.
8. Bioloji müxtəlifliyin itirilməsinin səbəbləri və qlobal təhlükə altında olan növlər.
9. Dünya meşə fondunun vəziyyəti: meşə örtüyünün azalması və meşə landşaftlarının dəyişməsi.
10. Dünya okeanının əsas bioloji resursları (balıq, dəniz bitkiləri və s.).

**XV. Fənn üzrə imtahan sualları:**

1. Təbii resursların təsnifat növləri və onların iqtisadi inkişafda rolu.
2. Resurs idarəetməsinin nəzəri modelləri: neoklassik, ekoloji-iqtisadi və institusional yanaşmalar.
3. Təbii resurs siyasətinin strateji planlaşdırılması və əsas prioritetlər.
4. Dünya mineral filiz xammalının coğrafi paylanması və ehtiyatları.
5. Filiz hasilatının texnoloji prosesləri və ətraf mühitə təsirinin qiymətləndirilməsi.
6. Filiz xammallarının səmərəli istifadə strategiyaları və tullantısız istehsal.
7. Mineral yanacaq resurslarının dünya miqyasında paylanması və ehtiyatların qiymətləndirilməsi.
8. Mineral yanacaqların hasilatı texnologiyaları və ekoloji risklərin idarə edilməsi.
9. Qeyri-filiz resurslarının növləri və tətbiq sahələri.
10. Mədənçıxarma və emalın texnoloji xüsusiyyətləri və ətraf mühitə təsirin azaldılması.
11. Kimya sənayesi üçün xammalın təminatının planlaşdırılması və ehtiyatların rasionallığı.
12. Dünya okeanının mineral ehtiyatları, dəniz dibi mədənlər.
13. Beynəlxalq dəniz hüququ və okean resurslarının bölüşdürülməsi prinsipləri.
14. Okean resurslarından istifadənin iqtisadi və ekoloji davamlılığının qiymətləndirilməsi.
15. Alternativ enerji mənbələrinin növləri, potensialı və texnoloji xüsusiyyətləri.
16. Bərpa oluna bilən enerji mənbələrinin inteqrasiyası üçün enerji sistemlərinin planlaşdırılması.
17. Alternativ enerji mənbələri sahəsində investisiya siyasəti, dövlət stimulları və maliyyə mexanizmləri.
18. Regionlar üzrə alternativ enerji potensialının qiymətləndirilməsi və prioritet istiqamətlərin müəyyən edilməsi.
19. Dünya şirin su ehtiyatlarının coğrafi paylanması və keyfiyyətinin qiymətləndirilməsi.
20. Dünyada su çatışmazlığı probleminin həlli yolları.
21. Çay hövzələrinin idarə edilməsi və transsərhəd su məsələləri.
22. Su təhlükəsizliyi strategiyası və iqlim dəyişikliyinin su ehtiyatlarına təsiri.
23. Torpaq resurslarının kateqoriyaları və bonitirovkası.
24. Torpaq deqradasiyasının (eroziya, duzlaşma, səhralaşma) qarşısının alınması və torpaqların bərpası.
25. Dayanıqlı kənd təsərrüfatı və torpaq mühafizəsi tədbirləri.
26. Aqroiqlim resurslarının (temperatur, yağıntı, vegetasiya dövrü) təsnifatı və qiymətləndirilməsi.
27. İqlim dəyişikliyinin kənd təsərrüfatı məhsuldarlığına təsirinin proqnozlaşdırılması.
28. İqlimə uyğun kənd təsərrüfatı texnologiyaları və becərmə üsullarının seçimi.
29. Bioloji müxtəliflik: növlərin, ekosistemlərin və genetik müxtəlifliyin əhəmiyyəti.
30. Bioloji müxtəlifliyin itirilməsinin səbəbləri və qlobal təhlükə altında olan

CamScanner ilə skan edilib

növlər.

31. Bioloji müxtəlifliyin qorunmasında beynəlxalq konvensiyalar və milli siyasətlər.
32. Dünya meşə fondunun vəziyyəti: meşə örtüyünün azalması və meşə landşaftlarının dəyişməsi.
33. Dayanıqlı meşə təsərrüfatı prinsipləri: balanslaşdırılmış istifadə, müntəzəm bərpa və monitorinq.
34. Meşələrin karbon udma potensialı və iqlim dəyişikliyi ilə mübarizədə rolu.
35. Meşə məhsullarının idarə edilməsi.
36. Dünya okeanının əsas bioloji resursları (balıq, dəniz bitkiləri və s.).
37. Dünya okeanında məhsuldarlığın saxlanması və kvotaların müəyyən edilməsi.
38. Akvakultura və marikulturanın inkişafı, onların vəhşi populyasiyaların mühafizəsində rolu.
39. Xüsusi mühafizə olunan təbiət ərazilərinin kateqoriyaları: qoruqlar, milli parklar, təbiət abidələri və s.
40. Xüsusi mühafizə olunan təbiət ərazilərinin seçilməsi, zonallaşdırılması və idarəetmə planlarının hazırlanması.
41. Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə olunmasında ekoturizmin inkişaf imkanları.
42. Azərbaycanın təbii resurs potensialının (neft, qaz, su, torpaq, bioresurslar) qiymətləndirilməsi.
43. Azərbaycanda neft-qaz kompleksinin iqtisadiyyatda rolu.
44. Azərbaycanda alternativ enerji mənbələrinə keçid strategiyası.
45. Azərbaycanda kənd təsərrüfatı və su resurslarının idarə edilməsi: problemlər və həll yolları.
46. Azərbaycanda ekoloji təhlükəsizlik və regionların ekoloji bərpası (Abşeron, Kür çökəkliyi və s.).
47. "Azərbaycan 2030: sosial-iqtisadi inkişaf perspektivləri" strategiyasında təbii resursların yeri.
48. Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədləri (DİM) və təbii resursların idarə edilməsi.
49. Davamlı inkişaf üçün ekoloji standartlar və texnologiyaların beynəlxalq mübadiləsi üzrə əməkdaşlıq.
50. Davamlı inkişafın iqtisadi, sosial və ekoloji tarazlığın təmin edilməsi strategiyaları.

MIF-B03. Təbii resursların idarə olunması və planlaşdırma fənninin sillabusu "Ətraf mühitin mühafizə və bərpa metodları" ixtisası (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Sillabus "Fizika, kimya və biologiya" kafedrasının 10 sentyabr 2025-ci il tarixli iclasında müzakirə edilərək təsdiq edilmişdir (protokol № 01).

**Fənn müəllimi:** biol.f.d., dos. Q.Ağayev.

**Kafedra müdiri v.i.e.:** riy.f.d., dos. N.Paşayev.

CamScanner ilə skan edilib